| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 19.10.2012 |
| QEYDİYYAT NÖMRƏSİ | 237 |
| ADI | “Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları”nın təsdiq edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 20-10-2012, Nəşr nömrəsi: 236), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-10-2012, Nəşr nömrəsi: 10, Maddə nömrəsi: 1018) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 360.010.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 14201210190237 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 23.10.2012 |

## "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nın təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.2.13-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 19 oktyabr 2012-ci il
237

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2012-ci il 19 oktyabr tarixli 237 nömrəli qərarı
**ilə təsdiq edilmişdir**

## Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması

## Q A Y D A L A R I

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Gömrük Məcəlləsinin *(bundan sonra – Məcəllə)* 328.5-ci maddəsinə əsasən hazırlanmışdır və gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin qüvvəyə minmiş qərarına əsasən müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi və dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin (bundan sonra - mallar) açıq gömrük hərraclarında satılması ilə bağlı məsələləri tənzimləyir.[1]

1.2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin (bundan sonra - Komitə) tabeliyində olan "Azərterminalkompleks" Birliyi mülki qanunvericiliklə müəyyən edilmiş qaydada hərracın təşkilatçısı və satıcısı (bundan sonra - satıcı) qismində çıxış edir.

1.3. Gömrük hərraclarında satışa çıxarılan malların ilkin satış qiyməti "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sərbəst (bazar) qiymətlər əsasında müəyyən edilir.

1.4. *Məcəllənin* 328.2-ci maddəsinə uyğun olaraq, gömrük hərraclarında iştiraka görə hərrac iştirakçılarından əmlakın ilkin satış qiymətinin 0,5 faizindən çox olmamaq şərtilə iştirak haqqı alınır.[2]

1.5. Gömrük orqanlarının, Komitənin tabeliyində olan qurumların işçiləri və onların ailə üzvləri dövlət mülkiyyətinə keçirilmiş malları birbaşa, yaxud dolayısı ilə (digər şəxslər vasitəsilə) ala bilməzlər.

1.6. Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi qaydaları qanunvericiliklə müəyyən edilir.

### 2. Malların gömrük hərracına çıxarılması və satılması

2.1. Malların gömrük hərraclarında satılması üçün Komitənin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və satıcının əməkdaşlarının daxil olduğu 5 (beş) nəfərdən ibarət hərrac komissiyası yaradılır.

2.2. Komissiyanın üzvlərindən biri Komitə tərəfindən sədr təyin edilir.

2.3. Satıcı gömrük hərracı vasitəsilə hərraca çıxarılan əmlak haqqında hər növbəti hərrac gününə ən geci 30 (otuz) gün qalmış kütləvi informasiya vasitələrində və Komitənin internet saytında hərracın açıq formada keçirilməsi barədə məlumatı, əmlakın tam adını, yerləşdiyi ünvanı, malların ilkin satış qiymətini, sifarişlərin qəbulunun başlanma və başaçatma tarixlərini, sifariş və sənəd qəbulu məntəqələrinin ünvanlarını, sənəd qəbuluna məsul şəxsin adını, soyadını, vəzifəsi və əlaqə telefonlarını, hərracda iştirak etmək üçün sifarişlərin qəbulu zamanı tələb olunan sənədləri, hərracın keçirilmə tarixini, vaxtı və ünvanını, hərracda iştirak haqqının məbləğini, əmlakın ilkin satış qiymətinin 5 (beş) faizi həcmində behin məbləğini və həmin məbləğin köçürülməsi üçün müvafiq bank hesabını əks etdirən elan dərc etdirir. Elan dərc edildiyi andan hərracda iştirak etmək hüququnu əldə etmiş şəxslərə satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır. Satışa çıxarılan əmlakla tanış olduqdan sonra hərracın keçirilməsinə 5 (beş) gün qalmış hərraca buraxılmış şəxslər hərracın təşkilatçısına hərracda iştirak edib-etməyəcəkləri barədə öz qərarlarını yazılı surətdə bildirməlidirlər.

2.4. Bu Qaydaların 2.5-ci bəndində qeyd edilən sənədləri hərracın başlanmasına ən geci 3 (üç) iş günü qalanadək təqdim etmiş hüquqi və fiziki şəxslər hərracda iştirak edə bilərlər.

2.5. Sifarişə iştirak haqqının və behin ödənilməsini təsdiq edən ödəmə sənədinin surəti, hüquqi şəxslər üçün dövlət reyestrindən çıxarışın surəti, fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti əlavə olunmalıdır.

2.6. Hüquqi və ya fiziki şəxsin nümayəndəsi tərəfindən verilən sifarişə müvafiq şəxsin adına verilmiş etibarnamə əlavə edilir.

2.7. Sifariş və ona əlavə edilmiş sənədlər satıcı tərəfindən qaytanlanmış və nömrələnmiş xüsusi kitabda qeydiyyata alınmaqla qəbul edilir və hərrac iştirakçılarına hərracda iştiraketmə nömrəsi və satışa çıxarılan əmlakın adı əks olunan bilet verilir.

2.8. Hərracın keçirilməsi barədə elanda digər qayda nəzərdə tutulmayıbsa, elan verən satıcı hərracı keçirməkdən onun keçirilməsi gününə ən geci 3 (üç) iş günü qalanadək imtina edə bilər. Satıcı hərracı keçirməkdən həmin müddətləri pozmaqla imtina etdikdə, iştirakçılara dəyən real zərərin əvəzini ödəməlidir.

2.9. Hərracı udmuş şəxs hərrac qurtardıqdan sonra ən geci 5 (beş) iş günü ərzində iştirak üçün verdiyi beh nəzərə alınmaqla alış qiymətini ödəməlidir.

## 3. Hərracın keçirilməsi qaydası

3.1. Satışa çıxarılan malların ilkin satış qiyməti elan edilir. İlkin satış qiyməti və ya əlavələr edilməklə artırılan satış qiyməti elan olunduqda, hərracda iştirak edən şəxslər öz biletlərini qaldırmaqla elan olunmuş qiymətə əmlakı almağa razı olduqlarını bildirirlər.

3.2. Hərracı aparan hər yeni elan olunmuş qiyməti üç dəfə təkrar edir. Elan olunmuş satış qiymətinə əmlakı almağa razı olan hərrac iştirakçılarının sayı iki və daha çox olduqda, həmin qiymət iştirakçılar tərəfindən əlavəetmə yolu ilə artırılır. Elan olunmuş növbəti satış qiymətinə əmlakı almağa yalnız bir iştirakçı razılıq verdiyi halda, həmin şəxs hərracın qalibi hesab olunur. Bu vaxt hərracı aparan şəxs əmlakın satıldığını, satış qiymətini və qalib gəlmiş şəxsin biletinin nömrəsini bildirir.

3.3. Satıcı aşağıdakı hallardan biri baş verdikdə, hərracın baş tutmadığı barədə hərrac tarixindən sonrakı 10 (on) gün müddətində hərracın keçirilməsinə dair elanın verildiyi kütləvi informasiya vasitələrində və Komitənin internet saytında məlumat dərc etdirir:

3.3.1. hərracın iştirakçısı olmadıqda;

3.3.2. hərracı udmuş iştirakçı hərracın nəticələri barədə protokol imzalamaqdan imtina etdikdə;

3.3.3. hərracı udmuş iştirakçı bu Qaydaların 2.9-cu bəndində müəyyən edilmiş müddətdə alış qiymətini tam ödəmədikdə.

3.4. Hərracın yeganə iştirakçısı hərracın qalibi hesab edilir. İlkin satış qiyməti və ya əmlakın növbəti hərracda aşağı salınmış qiyməti 3 (üç) dəfə elan olunduqdan sonra hərrac iştirakçılarının heç biri biletini qaldırmadıqda, hərrac qiymətinin 5 (beş) faizi məbləğində vəsait iştirakçılardan bərabər hissələrlə tutulur və hərrac baş tutmamış hesab olunur. Bu Qaydaların 3.3.2-ci və 3.3.3-cü yarımbəndlərində göstərilən hallarda iştirakçıların ödədikləri beh qaytarılmır.

3.5. Əmlakın satışı üzrə keçirilən ilk iki hərracda sifariş verilmədikdə və ya mallar satılmadıqda, üçüncü hərracda satıcı tərəfindən əmlakın ilkin satış qiymətinin 10 faizi həcmində, dördüncü hərracda ilkin satış qiymətinin 25 faizi həcmində, beşinci hərracda ilkin satış qiymətinin 50 faizi həcmində aşağı salınır. Həmin mallar (qiymətli metallar və qiymətli daşlar, onlardan hazırlanmış məmulatlar, habelə onların qırıntıları və tullantıları istisna olmaqla) axırıncı hərracda da satılmadıqda, bazar qiymətləri nəzərə alınmaqla, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada yenidən qiymətləndirilərək hərraca çıxarılır.

3.6. Hərracın nəticələri komissiya üzvləri və hərracın qalibi tərəfindən imzalanan üç nüsxədən ibarət hərrac protokolu ilə rəsmiləşdirilir. Bu protokol müqavilə qüvvəsinə malikdir.

3.7. Protokolda həmin əmlakın daşınması, saxlanması və satışı ilə bağlı xərclər qeyd olunur.

3.8. Hərracların baş tutmadığı hallarda, bu barədə komissiya üzvləri tərəfindən imzalanan protokol tərtib edilir.

3.9. Hərracın keçirilməsinin nəticələri barədə tərtib olunmuş protokolun bir nüsxəsi alıcıya, bir nüsxəsi isə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nümayəndəsinə verilir.

3.10. Gömrük işi sahəsində aşkar edilmiş cinayətlər və gömrük qaydaları əleyhinə inzibati xətalar haqqında işlər üzrə məhkəmələrin qərarları əsasında dövlət mülkiyyətinə keçirilmiş əmlakın satışından daxil olan vəsaitlər həmin əmlakın daşınması, saxlanması və satışı ilə bağlı xərclər çıxıldıqdan sonra 3 (üç) iş günü müddətində *Məcəllənin 334-cü maddəsinə uyğun olaraq istifadə olunur*. Şəxsin dövlətin xeyrinə imtina etdiyi malların və nəqliyyat vasitələrinin satışından əldə olunan vəsait dövlət büdcəsinə köçürülür. [3]

3.11. Ödəniş sənədinin bir nüsxəsi hərracın keçirilməsinin nəticələri barədə alıcıya təqdim olunan protokola əlavə edilir.

3.12. Hərracı udmuş şəxslə müqavilə bağlandıqda, hərracdan əvvəl ödənilmiş behin məbləği bağlanmış müqavilə üzrə öhdəliklərin icrası hesabına aid edilməklə, əmlakın satışı ilə əlaqədar bu Qaydaların 3.10-cu bəndinə müvafiq olaraq dövlət büdcəsinə və ya *Məcəllənin 334-cü maddəsində nəzərdə tutulan vəsaitə* daxil edilir. [4]

3.13. Əmlakın daşınması, saxlanması və satışı ilə bağlı xərclər 3 (üç) iş günü müddətində hərracın nəticələri barədə protokolda göstərilən hesablara ödənilməlidir.

3.14. Hərrac keçirilmədikdə və ya hərracda iştirak edən, lakin onu udmayan digər iştirakçıların və beh ödənilməsinə baxmayaraq hərracda iştirak etməmiş şəxslərin ödəmiş olduqları beh təşkilatçı tərəfindən təqdim edilmiş siyahı əsasında ödəyicinin tələbi ilə 7 (yeddi) iş günü müddətində geri qaytarılır.

3.15. Satıcı protokolu imzalamaqdan boyun qaçırarsa, hərracı udan şəxsə behi ikiqat məbləğdə qaytarmalıdır.

## 4. Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin təhvil verilməsi

4.1. Gömrük hərracında satılan mallar hərracın qalibinə əmlakın dəyəri tam ödənildiyi tarixdən 2 (iki) iş günündən gec olmayaraq təhvil verilməlidir.

4.2. Satılmış əmlakın hərracın qalibinə satıcı tərəfindən təhvil verilməsi qanunvericiliklə müəyyən edilmiş qaimə-faktura əsasında həyata keçirilir.

4.3. Təhvil verilmə ilə bağlı qaimə-fakturanın bir nüsxəsi alıcıya təqdim olunur.

***Qeyd.*** *Bu Qaydalarda dəyişikliklər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırıldıqdan sonra edilə bilər.* [5]


**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 01 may 2015-ci il tarixli **156** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2015-ci il, 5, maddə 642**)

2. 17 noyabr 2017-ci il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 noyabr 2017-ci il, 254, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2160**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 17 noyabr 2017-ci il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 noyabr 2017-ci il, 254, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2160**) ilə "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nın 1.1-ci bəndində "**Məcəlləsinin**" sözündən sonra **"(bundan sonra – Məcəllə)"** sözləri əlavə edilmişdir.

[2] 17 noyabr 2017-ci il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 noyabr 2017-ci il, 254, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2160**) ilə "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nın 1.4-cü bəndində "**Azərbaycan Respublikası Gömrük Məcəlləsinin**" sözləri "**Məcəllənin**" sözü ilə əvəz edilmişdir.

[3] 17 noyabr 2017-ci il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 noyabr 2017-ci il, 254, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2160**) ilə "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nın 3.10-cu bəndində "**Azərbaycan Respublikasının gömrük sisteminin büdcədənkənar inkişaf fonduna köçürülür**" sözləri "**Məcəllənin 334-cü maddəsinə uyğun olaraq istifadə olunur**" sözləri ilə əvəz edilmişdir.

[4] 17 noyabr 2017-ci il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 noyabr 2017-ci il, 254, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2160**) ilə "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nın 3.12-ci bəndində "Az**ərbaycan Respublikasının gömrük sisteminin büdcədənkənar inkişaf fonduna ödənilən məbləğə**" sözləri "**Məcəllənin 334-cü maddəsində nəzərdə tutulan vəsaitə**" sözləri ilə əvəz edilmişdir.

[5] 01 may 2015-ci il tarixli **156** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 642**) ilə "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nın sonuna yeni məzmunda "Qeyd" əlavə edilmişdir.